# Taleyin hökmünü gözləmək azdı...

**Yaşamaq məqsədə çevrilən zaman...**

İnsanların yaşam tərzi müxtəlifdir. Hər kəs böyüdüyü mühitə uyğun həyat yolunu seçər. Bəzən ətraf bu tərzə təsir etsə belə əqidəsi və iradəsi möhkəm olanlar yenə də dəyişməz qalar və öz kökünə, soyuna sədaqət rəmzi kimi bir həyat yolu seçər. Halal çörək yeyənlər zəhmət işartısı ilə zərrə-zərrə böyüyərlər və onlarda insanlığın təməli sağlam qurular. Mənəvi baxımdan zənginlik daha güclü olan belə insanlar təkcə ailəsi, özü üçün deyil, xalqı üçün, dünyaya göz açdığı el-oba, vətəni, aid olduğu torpağı üçün yaşar. Yaşamağı yalnız məqsədə çevirməz, amalı üçün yaşayar. Ağıl və düşüncə tərzi ən böyük olanlar dərk edər ki;

***Yaşamaq məqsədə çevrilən zaman,***
***Yaşaya-yaşaya yaşamır insan!***

* * *

***İstidən soyuqdan qorxub həsdiyən,***
***İçməli suyu da ılıq istəyən,***
***Yalana, böhtana qəzəblənməyən,***
***Axı yaşamamış bir insan kimi,***
***Dolanmış, sürünmüş öz mədəsiyçün,***
***Beləsi vətəndaş ola bilərmi***
***İstili, soyuqlu dünyaya bir gün?***
***Bəxtiyar Vahabzadə.***

**Kəndin igidlərinə örnək**

Uludaş kəndinin gəncləri zəhmətə bağlı, çörəyini halallıqla qazanmağa meyllidirlər. Torpağa, obasına bağlı gənclərdir. Bu isə onların dunyaya göz açdığı ailənin yaşayış tərzindən irəli gəlir.

I Qarabağ Müharibəsində də kəndin igidləri Vətən yolunda mərdliklə döyüşmüşlər.

Hərbi sahədə işləyən, ordumuzda qulluq edən, həmişə öz insanlıq və vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirən uludaşlı gənclər həmişə örnək olmuşlar. Ölümdən qorxmayan, "Vətən mənə oğul desə"... deyə düşünən gənclər həmişə vətəndaşlıq borclarını yerinə yetirirlər.



Aqil Musayevin ailəsi kənddə özünəməxsus hörmət və izzəti olan bir ailədir. Aqil və Şahnaz Musayevlər üç oğul övladı böyüdüb tərbiyə etmişlər. Həm də elə övlad ki, onlar bu gün Vətən keşiyində! Bu gün ordunun müsəlləh əsgərləri - Zəmanət, Dəyanət, Ayxan!



**Hərbi geyimin işığı**

Ata sadəcə halal zəhmətlə çörəyini qazanan bir insan. Ana evinə, ailəsinə, obasına bol sevgisi olan bir xanım. Böyüdüb tərbiyə etdiyi övladları da xarakteri və səviyyəsi ilə fərqli gənclər. Bu gün hər biri hərbi geyimdə, Vətən keşikçisi! Hərbi geyimin əzəməti, qüruru; hərbi geyimin qızılı işığı bu ailənin sevinci, vüqarı, fəxri. Bu geyimli üç qardaş isə qəhrəmanlığa xas vüqar, fəxarət simvolu.

**3 qardaş, 3 igid**

Dəyanət Musayev 2000-ci ildə Uludaş kəndində dünyaya göz açıb. Həqiqi hərbi xidməti əvvəlcə Gəncə şəhərində, sonra isə Qazax rayonunda keçmişdir.

Qisas müharibəsində igidliklə döyüşən Dəyanət Musayev "Cəbrayılın azad olunması", "Füzulini azad olunması", "Zəngilanın azad olunması", "Qubadlının azad olunması", "Laçının azad olunması" medalları ilə, 2022-ci ildə isə 3 Fəxri Fərmanla - 26 iyun - Silahlı Qüvvələr Günü münasibətilə mədəni-kütləvi tədbirlərdə fəal iştirakına görə, Fərrux dağ və Fərrux kənd istiqamətindəki antiterror əməliyyatları zamanı vəzifə borclarını layiqincə yerinə yetirdiyinə görə, 8 noyabr - Zəfər Günü münasibətilə döyüş hazırlığında, qoşun xidmətinin təşkilində əldə etdiyi nailiyyətlərinə və nizam-intizamında fərqləndiyinə görə təltif olunmuşdur.



Zəmanət isə Beyləqan rayonunda xidmətdə olmuşdur. Xidməti borcunu qurtarmağa 3 gün qalmış 44 günlük müharibə başlanmışdır. Zəmanət 2001-ci ildə doğulmuşdur. Zəmanət Musayev isə "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif olunmuşdur.

Ayxan evin ən kiçiyidir. 2004-cü ildə anadan olmuşdur. O, Gəncədə həqiqi hərbi xidmətdədir. 13 sentyabr iğtişaşları zamanı Kəlbəcərdə olmuş, hazırda Gəncə şəhərindədir.

Zəfər bayramının 2-ci ildönümü ərəfəsində Musayevlər ailəsinə Ayxanın qulluq etdiyi hərbi hissənin komandirliyi tərəfindən Vətənə layiqli bir övlad yetişdirdiyinə görə təşəkkür məktubu göndərilmişdir.

3 oğul, 3 hərbçi! Vətən onlara oğul deyib, onlar da Vətənin daimi keşikçisi olmuş və öz vəzifə borclarının öhdəsindən layiqincə gəlirlər.

***Bir əsgər qəlbindən qopan zümzümə,***
***Bir Vətən daşını isidəcəkdir!***

Əsgər - hərbçi övladların dilindəki; qəlbindən gələn zümzümə bilirsiniz nədir?! Məmməd Araz təbirincə desək:

***Demə yol dolayı, küləklər azğın,***
***Hər seldən, gürşaddan uçmaz bu qala.***
***Taleyin hökmünü gözləmək azdı,***
***Taleyin hökmünü özün imzala!***

3 oğul valideynləri bu gün kənddə övladları olmadan, onların xoş sorağıyla, qüruruyla yaşayır. Bilirlər ki, övladları Vətən keşiyində həmişə ayıq-sayıq, müsəlləh keşikçilər və Allahın köməkliyi ilə talelərinin hökmünü özləri yazanlardır!

**Bibixanım İSAYEVA.**
**"Qəbələ"**

# Heç kəs unudulmur

Rəhimov Fariz Zahir oğlu 2001-ci il 20 sentyabr tarixində Qəbələ rayonunun Əmirvan kəndində anadan olub. O, 2006-cı ildə Əmirvan kənd orta məktəbində orta təhsilə başlamış və 9-cu sinfi bitirdikdən sonra, 2016-cı ildə Bakı şəhər 12 saylı Bakı Peşə Liseyinə qəbul olub və 2017-ci ildə məzun olub.



Azərbaycan Ordusunun əsgəri olan Fariz Rəhimov 2019-cu ilin payız çağırışında hərbi xidmətə çağrılıb.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində Füzuli,Cəbrayıl,Xocavənd, Laçın, Şuşa istiqamətində gedən döyüşlərdə savaşıb. Fariz Rəhimov Şuşa uğrunda gedən döyüşlərdə şəhid olub. Əmirvan kəndində yerləşən Şəhidlər xiyabanında dəfn olunub.

Fariz Rəhimov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

Noyabrın 6-da Əmirvan kəndində şəhidin şəhadətə qovuşmasının ikinci ildönümü keçirilmişdir. Allah şəhidizə rəhmət eləsin!

**Şəhla BAYRAMOVA,**
**Qəbələ şəhəri.**

# Önəmli tarix

Noyabrın 12-də Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsindən 26 il ötür. Müstəqil Azərbaycanın ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də keçirilmiş ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilib. Dövlətin Əsas Qanunu 1995-ci il noyabrın 27-də qüvvəyə minib.

Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsinə çıxarıldı. Referendumda seçicilərin 86 faizi iştirak etdi və onların 91,9 faizi Konstitusiyanın qəbul edilməsinin lehinə səs verdi. Əsas Qanun noyabrın 27-də hüquqi qüvvəyə mindi.

Ötən 26 ildə ölkəmizin sürətli inkişafı nəticəsində yeni dövrün tələblərinin yaratdığı zərurətlə əlaqədar Azərbaycan Konstitusiyasına bir neçə dəfə əhəmiyyətli dəyişikliklər və əlavələr edilib. 2002-ci il avqustun 24-də referendum yolu ilə Konstitusiyanın 24 maddəsində 29, 2009-cu il martın 18-də isə 25 maddəyə 30-dan artıq əlavə və dəyişiklik olunub.

Prezident İlham Əliyevin təşəbbüsü ilə 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla Konstitusiyaya üçüncü dəfə əlavələr və dəyişikliklər edilib. Konstitusiyanın 29 maddəsinə edilən 41 əlavə və dəyişiklik müxtəlif sahələri əhatə etməklə, ali dövlət hakimiyyəti, məhkəmə hakimiyyəti orqanlarının və bələdiyyələrin işinin təkmilləşdirilməsinə, insan hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsinə, hüquq və azadlıqların müdafiəsində dövlət və bələdiyyələrin məsuliyyətinin artırılmasına yönəlib.

# Canlı şahid

**İnsanlığın güzgüsü**

Torpaq insan həyatını yaşadan, bir məhfum! Ona yaranışı Allah verər, torpağı da verər ki, yaşam olsun, həyat olsun. Torpaq canlıların yaşaması üçün ən gözəl məkan. Torpağın yaranışından doğar məkan da, həyat da, canlı da!...

Bütün bunlar isə vətən məhfumunu yaradar. Məmməd Araz öz sözlərindən birində yazmışdır:

**Ömrü boyu ayna bildim**
**qara torpağı,**
**İnsanlığın hər üzünü**
**göstərən odur!**

İnsanların həyat yolunu təmizləyən də torpaqdır. Bu sözün o qədər dərin və ümman fəlsəfi mənası var ki... Əsrlərlə öyrənilsə bitməz... Sözdən sözlər doğular, ifadədən ifadələr. Torpaq üzərində yaşayan ən şüurlu varlıqdır insan! Ona görə də torpaq insan ömrünün aynası sayılır!...-

Torpaqdan yaranıb, torpağa dönər insan! Torpaq ayrı-ayrı dillər, dinlər, adət-ənənələr verərək insanları fərqləndirər. Amma onlara "mənəvi bir orqan" verər-vicdan!

Təsadüfi deyil ki, dünyada olan münaqişələr, müharibələr torpaq uğrunda olan istəklərdən yaranır və bəzən bu münaqişələrə dini və irqi məsələləri də bəhanə kimi qataraq bir özət yaradırlar. Torpaq vicdanı ölçüləri olmayan insanları vəhşiləşdirər.

Bax, belə bir vəhşiliyi qonşu dövlətimiz xalqımıza qarşı bir siyasət kimi istifadə etdi. Ölkəmizdə daxili çəkişmələrdən istifadə edərək torpaqlarımızın 20 faizini işğal etdi. 30 il öz evindən köçkün olanlar müxtəlif bölgələrə səpələndi. İnsanlar yurd həsrətindən əzab çəkdi, çətin həyat tərzi keçirdilər. Ölkə rəhbərliyinin qan tökmədən, siyasi yolla öz torpaqlarını geri qaytarmaq niyyətinə dünyanın hegemon dövlətləri hər vəchlə mane oldular. Qəbul edilən sərəncam və təkliflər sənəd üzərində qaldı.

Ancaq səbrin də bir daşmaq nöqtəsi var. Daxilən həmişə atəşkəsi pozan, iğtişaşlar yaradan Ermənistan ordumuz və onun igid vətənpərvərləri tərəfindən layiqli cavablarını alırdılar. 2016-cı ilin aprel və 2020-ci ilin iyul iğtişaşları əyani misal və onlara layiqli cavab idi. Lakin bu iğtişaşlar zamanı şəhidlərimiz olmuşdur. Məlum iyul hadisələrindən sonra Ali Baş Komandanımız İlham Əliyev xalqın birliyi ilə Qisas müharibəsinin başlanması ilə əlaqədar sərəncam verdi. Yüzlərlə könüllü vətənpərvər vətəni müdafiəyə, torpaqlarımızın yağı tapdağından azad etməyə-döyüşlərə qatıldı...



Belə vətənpərvər gənclərdən biri idi Nicat. Vicdanının səsi onun döyüş yoluna yaşıl işıq oldu.

**Tanışlıq**

Nicat Baxışov Qəbələ şəhərində 1998-ci ilin 22 avqust tarixində dünyaya göz açmışdı. 2004-2015-ci illərdə şəhid Nicat Apayev adına 4 saylı orta məktəbdə orta təhsil almışdır. 2015-2019-cu illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin muzeyşünaslıq fakültəsində ali təhsilini başa vurmuşdur. Ali təhsili üzrə işləmək və rəngarəng arzularla yaşayan Nicat ölkəmizdə baş verən hadisələri izləyirdi. O, bilirdi ki, son dövr sərhəddə baş verən hədisələr müharibənin labüdlüyünü təsdiq edir. Ona görə də, özünü döyüşə, mənfur ermənilərdən şəhidlərimizin qisasını almağa hazırlayırdı. Ali təhsilini başa vurub doğma elinə qayıdan Nicat 2019-cu ilin iyul ayında həqiqi hərbi xidmətə yollandı və 2020-ci ilin iyul ayının 6-da hərbi xidmətini başa vurdu. 2020-ci ilin iyul iğtişaşları zamanı Polad Həşimov başda olmaqla, şəhadətə qovuşan igid hərbçilərimizin qisasını almaq, vətənin, torpaqlarımızın azadlığı uğrunda döyüşmək onun da arzusu idi. 2020-ci ilin 27 sentyabrında başlanan qisas müharibəsinə getmək, döyüşmək istəyən könüllülərin adları siyahısında onun da adı var idi. Atası Qismət Baxışov və anası Rəqsanə Baxışovaya isə yalnız ona xeyir-dua vermək, uğurlar arzulamaq, qələbə arzusu ilə yola salmaq qalırdı...

Sentyabrın 30-da cəbhəyə yollanan Nicat Baxışov Zəngilan, Xocavənd, Cəbrayıl rayonlarının düşməndən azad olunmasında iştirak etmiş, döyüşlərdə şəhidlərimizin qisasını almaq üçün mərdliklə döyüşmüşdür.

2021-ci ilin yanvar ayının 12-də Nicat Baxışov ordu sıralarından tərxis olunmuşdur.

Bəlkə də, Nicatın vətənpərvərliyinin güclü olması ailəsi və müəllimləri ilə bərabər oxuduğu məktəbin adını daşıyan şəhidimizə olan rəğbət və məhəbbətinin təsirindəndir. Axı şəhidlər hər kəsin qəlbində yaşayan canlı bir tarix, qəhrəmanlıq simvoludur.

Nicat Baxışov şəhid dostlarının xatirəsini daima əziz tutur, qazilərin yanında olur, onların vətən sevgisini yüksək qiymətləndirir.

**(Ardı 8-ci səhifədə).**